QAFARLI, Ramazann (2014). “Bextiyar Vahabzade Türk Dünyasının İstiqlal Şairidir”. *Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması. 26-28 Mayıs 2014***.** Eskişehir 2013 Türk Dünyası Kültür Başkenti Ajansı (TDKB). Eskişehir, ss.507-531 (http://bilgelerzirvesi.org).

Ramazan QAFARLI*

# BEXTİYAR VAHABZADE TÜRK DÜNYASININ İSTİQLAL ŞAİRİDİR



*Türk dünyasının ikinci minillikde yetirdiyi böyük şexsiyyetlerden biri, Azerbaycan edebiyyatının, bütövlükde XX esr poetik fikrinin görkemli nümayendesi Bextiyar Vahabzade çoxsaheli fealiyyeti ile Azerbaycanın serhedlerinden çox-çox uzaqlarda tanınır. O, her şeyden evvel mütefekkir şair, lirik dramaturq olaraq hemişe xalqının sözünü demişdir. Son dövr tariximizin yaddaşına hem de istedadlı alim, publisist, qeyretli, cesaretli ictimai xadim, yeni mübariz nesil yetişdiren müdrik pedaqoq, sade ve semimi insan kimi hekk olunan Bextiyar Vahabzadenin irsi - şeirleri, dramları, elmi-publisist yazıları dünyanın çox dillerine (ingilis, rus, fransız, alman, fars, Türk, polyak, ispan, macar, özbek, qazax, tacik, türkmen, eston, latış, litva, ukrayna, moldova, gürcü ve b.) tercüme edilmiş ve böyük sevgi ile qarşılanmışdır.*

Bextiyar Vahabzadenin uşaqlığı represiya çağlarına, gencliyini en qızğın dövrü ise İkinci dünya müharibesi illerine düşmüşdür. O,

* Prof. Dr. Azerbaycan.

qarşılaşdığı dehşetli hadiseleri daxilinden keçirdikce narahat üreyinin döyüntülerini şeire çevirib etiraz sesini ucaltmışdı. Onun ilk qelem tecürbesi mehz dünyanı faşizm kabusu bürüdüyü illerde sınaqdan çıxmışdır. Birinci metbu şeirleri ile Semed Vurğunun diqqetini özüne celb etmiş, onun xeyir-duasını alandan sonra bütün ömrünü poeziyaya hesr etmişdir.

B. Vahabzade 70-den artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın ve yüzlerle meqalenin müellifidir. Bakı Akademik Dövlet Dram Tetrının sehnesinde onun "Vicdan", "İkinci ses", "Yağışdan sonra", "Yollara iz düşür", "Feryad", "Hara gedir bu dünya?", "Özümüzü kesen qılınc", "Cezasız günah", "Dar ağacı" pyesleri, paytaxtın diger teatrlarında «Atamın kitabı» eseri tamaşaya qoyulmuşdur. O, tarixi ve müasir mövzuda 20-den artıq iri hecmli poemanın müellifidir.

O, 1974-cü ilde emekdar incesenet xadimi, 1975-ci ilde respublika, 1984-cü ilde ise SSRİ Dövlet Mükafatı laureatı adlarına layiq görülmüşdür. 1995-ci ilde ise Azerbaycan xalqının milli azadlıq uğrunda mübarizesinde xüsusi xidmetlerine göre "İstiqlal" ordeni ile teltif edilmişdir.

Son 50 ilde Azerbaycan edebiyyatında B.Vahabzade qeder ümumxalq mehebbeti qazanmış ikinci bir şairin adını çekmek çetindir. O, hele 60-cı illerde başlanan milli azadlıq herekatının öncüllerinden biri olmuşdur. 1950-ci ilde yazdığı "Gülüstan" poeması ile iki yere parçalanmış Azerbaycanın tarixi faciesini dile getirmiş, rus ve fars imperiyasının pencesi altında inleyen Azerbaycan xalqının azadlıq ve istiqlal uğrundakı edaletli mübarizesine qoşulmuşdur.

Bu poemaya göre 1962-ci ilde şair "milletçi" damğası ile Universitetden çıxarılmış, yalnız 2 ilden sonra yerine qaytarılmışdır. Sovet rejiminde milli varlığı tapdanan, her cür mehrumiyyetlere me'ruz qalan milletinin derdlerini remzler ve müxtelif edebi üsullarla ifade etmiş, iri hecmli poemaları ve pyeslerinde hadiseleri ya tarixe, ya da başqa ölkelere keçirerek öz milletinin derdlerini dile getirmişdir. Birbaşa Sovet diktaturasını ifşa eden eserlerini ise şair, Sovetler İttifaqı dağılandan sonra "Sandıqdan sesler" başlığı altında neşr etdirmişdir.

Bextiyar Vahabzade sözün heqiqi menasında narahat insan idi. Oxuculardan şikayet dolu mektublar alanda da, ünvanına yönelen qerezli yazılar qezetlerde işıq üzü görende de, mitinqler baş verende de, qonşunun - düşmenin xalqımıza qarşı iftiralarını eşidende de, qanlı yanvar hadiselerinde sovet imperiyasının generalıyla Azerbaycan

televiziyasında üz-üze gelende de... Ne qeder ki, dünyamızda haqsızlıq var, Bextiyarın da narahatlığı bitib-qurtaran deyildi...

Gözümün önünde
haqqı döyürler,
Qışqırır,
sesine bir ses veren yox.
Zorun arxasında
 ele gizlenib,
Onu ne eşiden,
 ne de gören yox...

Şair hamını ayıq olmağa sesleyir, çünki "nahaq haqq olanda haqq da haqq deyil". Sözün hikmetine baxan yoxdur. Böyükle kiçiyin yeri sehv düşüb. Elin en müdrikinin bele feryadına ehemiyyet vermirler. Haqqın haqqı elinden alınan yerde "Haqın haqqı yoxdur "men haqqam" desin". Bextiyar Vahabzade isteyir ki, "haqqın deyirmanında" ancaq zülmü üyütsünler. Lakin her ikisinden "yene zülüm doğulur". En dehşetlisi ise odur ki:

Hem haqqın, hem de zülmün
Teze deyirmanında
Üyüdülen haqq olur.

Sözü gülleye çeviren Bextiyar bezen belanın böyüklüyünden doğan sorğularının cavabsız qaldığını görür, lakin acizleşib eyilmir, dünyanın özüne qarşı üsyan qoparır: "Men bele dünyaya ne deyim indi?"

O, bütün titullarına baxmayaraq, ilk növbede şair idi. Şair Bextiyarın meydanında döyüş sözle aparılırdı. O, sözünü her vaxt deyirdi - özü de serrast, açıq, özünü oda-köze vuraraq deyirdi. Ellinci illerde de, son çağlarında da. Üzündeki kederin bir sirri onda idi ki, bezen sözü kesereden salırdılar. Nizamiden, Yunus Emreden, Nesimiden, Dede Qorquddan miras qalan sözün qeribçiliyini, yazıqlığını görmek şair üçün böyük derddir. Kimlerse qesden Sözün meydanını daraldır. Bu halda da Bextiyar kelamının deyeri evezsiz idi, müdrikliyi hamımıza derman idi.

Bextiyar Vahadzade poeziyası insanlığın heyat dersliyidir desek yanılmarıq. Onun içerisinde zaman, eşq, vetendaşlıq, mübarizlik, üsyankarlıq, merdlik, erenlik, qeyret, ar, namus, düzlük,

saflıq ve daha nelere çağırış var. Bu poeziyada inamsızlıq, tereddüd, meğlubluq, üzüdönüklük yoxdur. İnsan oxuduqca düşünür, düşündükce metinleşir, dözümlülük, eyilmezlik tapır, Bextiyarın "men"ini - qehremanlarını tanıdıqca özünü derk edir, ümidsizlikden yaxa qurtarır, vuruşmaq, qelebe çalmaq isteyir. Bextiyarın felsefesi kitablardan gelmirdi, heyatın, yaşantıların içerisinden doğurdu. Onun müdrikliyi dünyamıza tapınırdı. Şair fikirlerini poetik strukturlarda ele qelibleşdirirdi ki, sade olduğu qeder bitkin idi, insanla, cemiyyetle sıx bağlantıda idi.

Bextiyarın zahiri görünüşü, davranışı, danışığı, hadiselere baxışı da özünemexsus idi. Ve şairin senetini bu amillerden ayrı tesevvüre getirmek mümkün deyil. Bextiyara bextiyar şair kimi baxanlar yanılırlar. Çünki o bextiyar olmağa can atmaq üçün dünyaya gelmemişdi. Narahatlığının, üsyankarlığının bir sebebi de bunda idi. Başqa sözle, onun bextiyarlığı sözlerinin serrastlığında, hedefe deymesindedir. Eger şehidlere hesr etdiyi eserleriyle hemvetenlerinin qelbinde qesbkarlara nifret oyatdığını, xalqının bir yumruq kimi birleşdiyini görürse, demeli, bextiyardır. Şair insanların duyğu ve düşüncelerine güzgü tutmaqla senetini yaşadır ve bununla öz ömrünü uzadır, daha doğrusu, ebedileşdirir. Bextiyar poeziyası bir şexsin narahatlığını deyil, başı müsibetler çekmiş böyük bir xalqın ümuleşmiş duyğularını ifade edir. Mehz bu menada onun eserleri heyat dersliyi rolundadır. O derslikden neleri öyrenirik? - sualını cavablamaq üçün böyük bir kitab azlıq eder. Bezi meqamlarını qısaca açıqlamağa çalışacağam.

Bextiyar Vahabzade poeziyası sevib sevilmeyi, seçib seçilmeyi, tanıyıb tanınmağı, yuxudan ayılmağı öyredir. Dostu, düşmeni, merdi, namerdi, özümüze özümüzü tanıdır. O derslikde esil insan kimi yaşamağın yolları gösterilir. Bextiyar Vahadzedenin poeziya dünyasına giren oradan Vetenperver, üsyankar bir insan kimi çıxır. Şair hele 50-60-cı illerde meqam eline düşen kimi sesini ucaldırdı. O dövrleri yaşayanlar bilir ki, milli qürurdan behs açan bir kelme söz üste adamın dilini bağlayırdılar. Herden Bextiyarın sebir kasası ele dolurdu ki, dözmeyib açıq-aşkar imperiyaya meydan oxuyurdu, "Gülüstan" feryadını qoparırdı:

Hanı bu ellerin
    merd oğulları,
Açın bereleri, açın yolları.
Bes hanı bu esrin
    öz Koroğlusu –
Qılınc Koroğlusu,
    söz Koroğlusu?

"Söz Koroğlusu"na çevrilib "dırnağı etden", "üreyi bedenden", "canı cesedden" - Azerbaycanı Azerbaycandan ayıranlara heykel qoyanlara, şenlerine tenteneli toplantılar keçirenlere qılınc çalmaqla şair Nizaminin zahidi kimi eynine kefen keçirmişdi. Bu, Stalin zindanlarının qapılarının tezece açıldığı 1959-cu ilde deyilirdi. Çoxları tarı, kamanı, nağaranı utandırıb "Azerbaycan-Rusiya birliyi"ne neğmeler qoşurdu, orden payı umurdu. Bextiyar Vahabzede ise Arazın timsalında Veten övladlarını bizleyib ayıltmağa, üsyan qaldırmağa sesleyirdi:

Ey Araz, sepirsen,
göz yaşı sen de,
Keçdikce üstünden çölün,
çemenin,
Seni arzulara sedd eyleyende,
Niye qurumadı suların
senin?

Ve Azerbaycanın 90-cı il xalq herakatı dalğasının mayasında bu poemanın durması şübhesizdi. Azerbaycan gencleri "Gülüstan"dan keçib "Azadlıq" meydanına toplaşmışdılar... Zaman Bextiyar Vahabzedenin üsyanına hele o çağlarda teslim olmuş, onu susdurub yox etmekde aciz qalmışdı. "Meqamı ele keçirmesi" hemin qarşılaşmadan sonra ortaya çıxıb. Zaman Bextiyar sözünün keseri qarşısında susmağa üstünlük verdiyi kimi, şair de öz yuvasına çekilen, quyruğu tapdalanmış "efi ilanın" qefil çalmasına beled idi. Bu sebeden daha sözü üze demir, "küleye buraxır", qananın qanması da kifayet edir.

Bextiyar Vahabzadeye göre "meqem tapmaq" ne idi? Başqa ölkelere seyahete çıxanda guya yadların, imperiyadan kenardakıların derdinden behs açırdı. Ancaq yadellilerin diliyle Azerbaycan türkünün derdlerini dile getirirdi. "Öz ana yurdundan özüne tekce Torpağı qazdığın xış qaldı, qardaş!.." - deyende ispanı nezerde tutmurudu, hemin şeraitde yaşayan hemvetenini dümsükleyib oyadırdı. Bilirdi ki, gec-tez yatmış milletin gözünden yuxunu qovsa, zamanın özünü diz çökdürecek:

Ayağa qalxmışdır
artıq vetenin,

Qoy onun önünde
diz çöksün zaman.

Şair görürdü ki, xalqı yuxuya verenler "öz doğma dilinde danışmağı ar bilen fasonlu edabazlardı", eleleri ile ne o çağlarda, ne de indi barışıb:

Qelbinizi oxşamır
qoşmalar, telli sazlar.
Bunlar qoy menim olsun,
Ancaq veten çöreyi,
Bir de ana üreyi.
Sizlere qenim olsun. (1954)

Dil meselesinde heç kese güzeşte getmir. Çüki dil insan "üreyinin açarıdır". O açarı başqasına verenden ne gözlemek olar? Diline xor baxan torpağına kor baxar. Ana südünü emende eşitdiyi laylanı qulaqlarında sırğa etmeyenler üçün müqeddes şey yoxdur. Şair yeri gelende heç ustad Şehriyarı da bağışlamır, acısa da günahını üzüne deyir:

Meni bağışlasın
Şehriyarım da,
Otuz il özgeye "berader" dedi.
Öz doğma yurdunda, öz
Diyarında
Doğma anasına o "mader" dedi.
Ele ki, yumruğu yere direndi,
Derhal yada düşdü
doğmaca kendi.

Şehriyar gec de olsa ana qucağına - Heyder Babaya sığındı, rahatlığını tapdı. "Ermeniye dayı" deyib servet ele keçirenlerin ise yeni qurulan milli dövletde elacsızlıqdan Azerbaycanca danışanda dilleri topuq çalır. Şair sözü qılınca dönderir:

Dilimi dansaydım
men de senin tek

Sen kime ders deyib
pul qazanardın?

Heyatın tezadlarını bedii dille ifade edende Bextiyar senetinin özünemexsusluğu daha qabarıq nezere çarpır:

Siyasetin aynasında
Eyriler düz görünse de
Aynanın ki, üzü birdir!

Şairin narahatlığına sebeb olan ümde meselelerden biri de Vetenin ikiye bölünmesidir. Azerbaycan adlı yurdun bu ağır derdine çoxları eser hesr edib. Lakin Bextiyar Vahabzade qeder kökünden baltalayan olmayıb. Belke de sovet mekanında yaşadığımız çağlarda onun en böyük arzusu Araz üstünde çoxlu "el keçen körpülerin salınması" idi. Hele 1962-ci ilde yazırdı ki:

Arazın
Bu tayı Vetenim,
O tayı Vetenim.
Veteni görmeye amanım
yox menim...

Ve qibtde edirdi ki, Füzuli hesretle qürbetden Vetene baxırdı, o ise "Vetenden - Vetene baxır".
Elinde silah eqidesi yolunda vuruşmalarda ölmeye bele hazır olan şair ömrünün boranda, qarda ötüşmesiyle de razıdır, teki xalqının "sirdaşı olmasın ne feryad, ne ah..."
Sonra "şehidler yarası" bunun üstüne geldi:

Kime deyim derdimi?
Qesbkar namerdemi?
Yetmiş ilin derd-qemi
Gözden axdı o gece.

O dövrde Sovetler İttifaqında dövletin yüksek mükafatlarını almış şairin dilinden ittihamname eşidende partiya "funksioner"leri belke de bir şeye heyfslenirdiler. "Gülüstan" deyen dilini o vaxt kesseydiler, bu gün cınqırını çıxardan tapılmazdı". Eşitdiyime göre,

şair o çağlarda imperiya nökerelerinin teltiflerini “itin ağzına atılan sümüye” benzedirdi.

Bextiyar Vahabzade bir sözü kombinasiyalara uğradaraq ele poetik strukturlar, modeller yaradır ki, orada eyni hal müxtelif funksiyalarda çıxış edir:

Eyri eyriliyi yeridir daşa,
Keçib eyrilikle
hamıdan başa.

İki misrada “eyri” sözü üç defe işlenir. Lakin heresi bir yükün daşıyıcısıdır: birinci “eyri” icraçıdır - “eyrilikleri daşa yeritmek”den başqa elinden heç ne gelmir, ikinci vasitedir - eyriliyi ile daşlara da te’sir gösterir, üçüncü ise mütleq-hakimdir - eyri işlerle keçib oturub hamıdan başda. Yalnız Bextiyar qüdretiyle eyni söz kiçik poetik füqurun (hemin şe’rde iki misranın) içerisinde ferqli me’na tutumlarına malik ola bilir. Klassik felsefi şe’rde forma, struktur ikinci derecelidir. Üstünlük mezmunun elinde cemlenir. Onun eserlerinde ise her ikisinin vehdeti esas götürülür:

Rehber cahildirse,
millet de qafil,
Demek, bu memleket
üz üste batmış.
Millet de, rehber de
oyanan deyil,
Oyada bilermi
yatmışı yatmış?

1990-cı ilde xalqının başına açılan müsibetlerin sebebkarına üzünü tutub dediyi bu misralarda nifretinin heddi-hüdudu yoxdur. Lakin hemin nifretin mayasında da insanları qeflet yuxusundan oyatmaq durur.
Bir il sonra ise Qerbi Azerbaycan ellerini, Qarabağı köklü insanlarından tecrid etmekden ötrü “siyaset oyunları”nda uduzanlara deyirdi ki:

Köksümüzde sine dağı,
Biz yaşadıq qul sayağı.
Gelen satdı bu torpağı
Dedesini malı kimi.

Xalqın üreyi geniş olduğu qeder sadelövhdür, bağışlayandır. Belke de üstüne yağan derdlerin çoxluğundan yaddaşları tez don vurur. Şair buna göre de berk narahatdır. Azerbaycanın taleyinde çox hadiseler baş verib ki, onları heç vaxt yaddan çıxartmaq olmaz. Müsibetleri unutduqca düşmen de qüvvetlenir. Bu me'nada Bextiyar Vahabzede poeziyası ana laylasını evezlemelidir:

Dedim, silinmesin
bu qan, bu qada,
Bir de gülle izi
dağ-daşımızdan.
Yalnız bu güne yox,
biz sabaha da
Güzgü tutmalıyıq
yaddaşımızdan.

Yoxsa ne gelecek nesiller, ne de ölenleri ruhu günahlarımızdan keçer. Şair bir heqiqeti ise "özüm" sözünü tekrarlamaqla üze çıxardır:

Özümün özüme xeyanetimi
Bu gün men özüme
bağışlayımmı?

Her şeyden el üzülende gözümüzü ümide dikirik. Ümidle yeyir, ümidle nefes alırıq. Sonsuz ümidlerimiz de kesilse, dünya gözümüzde qaralar. Lakin tekce ümidle "silahlansaq" düşmenden torpaqları almaq mümkünsüzleşer. Ümidi ancaq bir neçe anın tesellisine, özümüze gelme vasitesine çevirmeliyik. Belke de bu me'nada şair deyir ki:

Heykel qoyun ümide,
Terk etmez bir an bizi.
Arzuya qanad verib,
Odur yaşadan bizi.

Bextiyar Vahabzadenin poeziya dünyasının mövzu dairesinde neler yoxdur: qem de var, sevinc de; mehebbet de var, mekr de; sedaqet de var, xeyanet de; razılıq da var, e'tiraz da; keçmiş de var, bu gün de; merdlik de var, namerdlik de; inam da var, tereddüd de; heyat da var, ölüm de; cennet de var, cehennem de; gülüş de var, ağlamaq da; ayrılıq da var, vüsal da; xeyir de var, şer de; müdriklik de var, nadanlıq da, ucalıq da var, alçaqlıq da... Amma ikinciler hemişe teslim veziyyetdedir, zirveni feth etmek cehdleri boşa çıxır, be'zen hökm, servet ellerinde cemlense de me'nen cılızdır, yoxluğa, puçluğa mehkumdur. Bextiyar senetinin bir amalı ve ümumileşmiş bir baş qehremanı var - o da İstiqlaldır.

Sevgiden yazanda da şair istiqlal barede düşünmüş ve ömrü boyu xalqının esil istiqlala çatması uğrunda vuruşmuşdur. Onu zaman ve tale şairi de adlandırmaq olar. Ne ağrılı, ne de şirinli, ne soyuqlu, ne de istili anını deyişmek, başqa axara salmaq mümkündü Zamanın. Şair öz işinde olan Zamanla kelleleşir, çünki:

*Nöqsanını üze deyen*
*namerd deyil,*
*Kirayede yaşadığın*
*ev yurd deyil.*
*Anan sene ögey olsa,*
*bir derd deyil,*
*Zaman sene ögey olsa*
*vay halına!*

"Zamanın diri-diri bizi defn etdiyi" dünyadan türkün tarixi taleyini qaytarmağı umur, çox hallarda meseleni teleb şeklinde qoyur. Hemişe merdliye arxalanan, haqqa tapınan, qılıncdan çox elme, medeniyyete, incesenete, Muğama köklenen xalqının namerd dünyada yersiz, yurdsuz qalması, öz evinde kirayeçi sayılması, torpağından qovulub çadırlarda ömür-gün çürütmesi, zülm, sitem görse de üstüne "vehşi" damğasının vurulması onun üsyankarlığını şiddetlendirir. Şairin narahatlığının bir esas sebebi de odur ki, "Bereket tumu tek dörd ilden beri Ekirik torpağa biz şehidleri."

Be'zen camaat arasında bele kelamları eşidirik: "Ne yaxşı ki, Bextiyar Vahabzade var, yoxsa derdimizi deyen,

günümüzü, güzaranımızı başbilenlere çatdıran olmazdı...” Beli, ne yaxşı ki, Bextiyar sözü, Bextiyar üsyankarlığı tükenmezdir. Yoxsa dünyada her şey bir rengde görünerdi. Haqqın yolunu o qeder ot, alaq basardı ki, tapılması mümküzleşerdi.

Bextiyar Vahabzade tekce Azerbaycan türklerinin deyil, bütün Türk dünyasının bütövlüyü, tamlığıdır. Onun senetinde qırqızın da, özbeyin de, türkmenin de, qaqauzun da duyğuları, düşünceleri, istekleri eks olunub.

Bextiyar poeziyası türkün üz ağlığıdır, qılıncdan iti söz çelengidir. Tesadüfi deyil ki, müasir dünya nesrinin görkemli nümayendesi Çingiz Aytmatov şairin yaradıcılığını iyirminci yüzilliyin zirvesi sayır. Çox vaxt biz öz dahilerimizi başqalarının gözüyle keşf edirik. Lakin bu gün xalqın ekser hissesinin Bextiyar Vahabzadeye hem şair-senetkar kimi, hem de ictimai xadim kimi inamı varsa, demeli, geleceye ümidini itirmeyib, bir dizini yere qoymağa mecbur edilse de, yıxılmayıb, gücünü, ezmini toplayıb azğın düşmene qalib gelecek, torpaqlarımızı geri alacaq, birliyimizi te’min edecek...

*Bextiyar Vahabzade sevilir, sevilecek de. Evezsiz seneti özünün ve müasirlerinin heyatına, yaşantılarına güzgü tutub. O güzgüde her şey olduğu kimi görünür. Heç kes hemin gerçekliyi eymeye, söze mermerden, qranitden heykel qoyan böyük senetkara çamuru kelmeye dönderib cızmaqaralarla leke yaxmağa qadir deyil. Qorxsunlar ki, özleri çamura batıb itmesinler. Çünki artıq Bextiyar zirvesi iyirminci yüzilden iyirmi birinci yüz ile boylanır. Yeni esrin poeziyası da onun ilhamıyla start götürecek.*

Bextiyar Vahabzadenin poeziyası ele neheg çıraqdır ki, nurunu menevi alemin en derin guşesine çatdırmağa qadirdir, dinleyicilerine haqqın yolunu gösterir, ruhları saflaşdırır. Bu poeziyanın sadeliyinin içerisinde derin felsefi fikirler gizlenir. Şeirlerinin poetik strukturuna nezer salanda görürük ki, o, xalqın universallaşıb ümumbeşeri anlam kimi işlenen remzlerine daha çox üz tutur. Müasir elmi edebiyyatda «arxetipik simvol» termini adı ile şerh olunan kateqoriya bedii metnlerin strukturlarında esas detallardan biri olsa da, nedense, Azerbaycanda indiyedek araşdırılmamışdır. Ona göre de nezeri aspektde izahlar vermekle meseleni Bextiyar Vahabzadenin yaradıcılığında izlemeye çalışacağıq.

Sovet ideologiyasının en mühafizekar çağında bir çox şeirlerinde onlarla arxetipik simvoldan - isti-soyuq, axşam-seher, tepe-dağ, derya, göy, ul-duz, deniz, güneş, şaxta, qar, boran ve s. istifade

ederek insanın hansı misiya ile dünyada yaşamasını cesaretle ireli sürlür. Sair kommunist partiyasının artıq mübarizeye ehtiyac qalmadığını ireli sürdüyü meqamda dağda şelale kimi çağlamaq isteyini açıq-aydın beyan edirdi. Çünki xalqının haqqı tapdalanmış, Yer üzünde Azerbaycan türklerine mexsus mekana şer gözler dikilmiş, düneni şübhe dumanına bürünmüş, ecdadları danılmış, millet adı bele zorla elinden alınmışdı. Bütün bunlar ele meharetle yerine yetirilmişdi ki, üzde fitne-fesad şeklinde görünmür, milli ruhun öldürülmesi üçün saxta "dostluq", "qardaşlıq" şüarları ireli sürülürdü. B.Vahabzade anlayırdı ki, Azerbaycanı parçalayanların neve-neticeleri babalarının mekrli emellerini "papış tikmekle" davam etdirir, pambıqla baş kesirler. Ona göre de soydaşlarını gücünü tükenmez şekle salmağa, döyüşken ruhunu oyatmağa sesleyirdi:

Yaşamaq istemirem sürünüb dizin-dizin,
İsteyirem en uca zirvelere men qonam.
Xefif sakitliyini neyleyirem denizin,
Onun qasırğasına, dalğasına vurğunam.
Çağlamaq isteyirem dağda şelale kimi,
Sepilmek isteyirem çöllere lale kimi.
Derya olub, nehr olub, çalxanmaq isteyirem,
Göylerde ulduz kimi men yanmaq isteyirem...

B.Vahabzadenin insanlardan en böyük isteyi odur ki:

Çıraq ol!
Nurunu artır günbegün,
Her yerde heyatın boğ zülmetini.
Mence, çıraq olub başqalarıyçün
Yananlar tapıbdır seadetini!

Şairin yaradıcılığının ilk merhelesi 1949-59-cu illeri ehate edir. Onun “Menim dostlarım” (1949) adlanan ilk kitabında şairin görüb-götürdükleri mekteble ve genclik illerinde rastlaşdığı müharibe ile bağlıdır. İlk qelem tecrübelerinin esas qehremanları ve mövzusu da mekteb, müellim ve müharibedir. Eslinde tehsil, bilik elde edilen ocaqla qanlı döyüş meydanları, cebhe bir-birine ziddiyyet teşkil edir. Lakin davanın, savaşın, nahaq qan tökmenin mayasında insanların nadanlığı, dünyagörüşünün mehdudluğu, kemsavadlığı durur. Dünya hemişe müdriklerin, bilicilerin elinde olsa, qarşıdurma yaranmaz,

silahların yerine ağıl, kamal iş görer. "Yaşıl çemen, ağac altı, bir de ki, tünd çay…" Şairin işıq üzü gören ilk şeirinin adı da qeribedir, Semeb Vurğunun beyenib o zaman çapa hazırlanan genc şair ve yazıçılar üçün hazırlanan topluya teqdim etdiyi bu eserden iddialı qelem sahibinin meydana atıldığı duyulurdu. Dövr üçün o qeder de xarakterik olmayan süjetli şeir formasında yazılmış bu şeirin adında zaman ve insan bağlılığının ziddiyyeti, daha doğrusu, qoca zamanın insanığa qarşı böyük haqsızlığı özüne yer alır. Şair qardaşı ile yaşıl çemende, ağac altda eyleşib tünd çay içerken müharibede keçirdiyi bir günü xatırlamaya bilmir. Ona göre ki:

Arxadakı elli illik dostluqdansa bil,
Cebhedeki birce günlük möhkemdir daha.
Çünki orda gün, ay vardır, yoxdur uzun il.
Bu sabahdan umid olmur gelen sabaha…

Döyüşden qabaq esger dostu en böyük arzusunu bildirir: çiçekli bağçalarından bir de keçmek, çemenlikde, otlar üste oturub veteninin tünd çayını içmek… Topların gurultusu bir-birine qarışır. Zaman böyük haqsızlıq edir. Axı, bu gengin isteyinde fövqalade bir şey yox idi? O günkü savaşdan sağ çıxmaması dostunu ona göre yandırır ki, minlere kama çatmamış insanlar müharibede torpağa qarıçdılar. Eslinde zamanı çıxılmaz veziyyete salan ele insanın özü idi.

"Xatireler" şeirinde de müharibenin ağrılarının sızıltısına yer verilir:

Ömrün tacı gencliyimi cebhelerde men qoymuşam,
İndi ise o günlere qanad açan quşam, quşam.

Şair dünyanın geleceyini bilikde, zekada, aqillikde görür ve hamı yeniyetmeler o yoldan uğurla keçseler dava-qalaşa ehtiyac qalmaz:

A mekteb yolları, sizsiniz yalnız
Yaradan işiqla istiqballarl.
Meni xoşbextliye siz apardınız,
A mekteb yolları, mekteb yolları.

“Bahar” (1950) kitabinda da B.Vahabzade hele axtarışdadır. Doğrudur, zaman ve insan elaqesinin bir bağlılığının da tebiet olduğunu anlayır. Senet dühalarına – A.S.Puşkine, Ü.Hacıbeyova, Azerbaycan Dövlet Dram teatrının yaradıcı heyetine, senet mektebinden istehsalata geden genclere hesr etdiyi şeirlerden hiss olunur ki, Bextiyar Vahabzade özü de hemin şağlarda öyrenir, mütalie edir, Azerbaycan ve dünya medeniyyetinin inkişafında öz yerini, dest-xettini tapmağa çalışır. Şairin daxili narahatlığı ilk qelem tezrübelerinde de nezere çarpır. Xalqı daşlı-kesekli cığırlarla addımladığı halda yolların hamarlığınım göze soxulduğu ile barışmır. Tekce yurdunun füsunkar tebieti qarşısında olayları unudub eline ressam fırçası alıb tablolar yaratmaq isteyir:

Çay daşları yene xal-xal,
Gözel olur çölde bu hal.
Etirlenir çemen, çayır,
Göy üzünü qucaqlayır
Kemer kimi qövsi-qüzeh.

Yavaş-yavaş esdikce meh,
Yayılır xoş torpaq iyi.
Bu menalı gözelliyi
Biz sevirik ezel günden,
Gözel veten, gözel veten!

Ümumilikde, şairin onilliyin sonunadek (“Gülüstan” poemasını qeleme alanadek) bir-birinin ardenca yeddi kitabı çap olunub: “Menim dostlarım” (1949), “Bahar” (1950), “Dostluq neğmesi” (1953), “Ebedi heykel” (1954), “Ceyran” (1957), “Aylı geceler” (1958) ve “Seçilmiş eserleri” (Şairin kitabxanası” seriyasından, 1959). Bu, sovet dövründe böyük uğur ve qelem sahibine gösterilen sonsuz etimaq idi. Artıq Azerbaycan ictimaiyyetine “Bextiyar Vahabzade” imzası yaxşı tanış idi. Bu imzanın yaratdıqları evvelki onilliklerde yaranan sablon movzulardan, pafoslu, ritorik, hay-küylü, şüarabenzer fikirlerden uzaq idi. İnsanı düşündüren en semimi duyğularla, genclik etirasından doğan qetiyyetli misralarla zengin idi. Bextiyar Vahabzade “Anni Dobi” (1951) seiri ile ilk defe öz vetenine aid qarşısıalınmaz gizli problemleri başqa ölkeye şamil edib setiraltı menalarda düşüncelerini oxucularına çatdırmağın mümkünlüyünü anladı. Bu günün prizmasından yanaşanda az yaşlı uşağın pul elde etmek üçün

işlemesinde facievi heç ne yoxdur. Balaca oğlanların eline eski parçası alıb yoldan öten mağınların şüşelerini silmekle sürücülerden qepik-quruş alması ile her gün rastlaşırıq ve adi hal kimi qarşılayırıq. Bes uzaq Hindistanda Dehli tütün fabrikinin fehlelerinin uşaqlardan ibaret olmasına şairin sarsılmasının sebebi ne idi?

Onun vur-tut on yaşı var,
Tütün eşir... ömrü boyu,
Yanağında göz yaşı var.
Yazıq bala, körpe quzu,
Oynamalı bu çağında
Yadlar senin gülüşünü
Qurutdular dodağında.
Dağlar delen bir ah qopdu
Menim derdsiz üreyimden...

Bu, "derdsiz şair üreyi"nin yadlara ilk etirazı idi. Diqqet yetirin, eslinde derdsiz ürekden daşlar delen ah qopa bilmez. Bir neçe il sonra göreceyik ki, Bextiyar Vahabzade ve soydaşları dünyanın en derdli ve mızlum insanlarıdırlar, yadlar terefinden vetenlerinin parça-parça edilmesini şeref işi sayaraq bayram edirler, övladlarının ana dilini yadırğamaları üçün deriden-qabırğadan çıxırlar.

O, milletinin qesden tenbelliye alışdırıldığını da derk edirdi. İnsanlar tepe aşağı sürüşüb lezet almaq üçün xizeyi yuxarı qaldırmalıdırlar. Bezileri isteyir ki, hansı qüvvese bu işin yerine yetirilmesinde onlara yardımçı olsun:

Meyveni yemek üçün
Ağac ekesen gerek,
Lezzet çekmek istesen,
Zehmet çekesen gerek.

*("Xizek" seiri,1951)*

Beli, kölelikden yaxa qurtarmaq üçün de mübarize aparmaq, vuruşmaq lazım gelirdi.

Şairin Cenub mövzusuna üz tutmasında da xeyli keyfiyyet deyişikliyi hiss olunurdu. Müharibeden sonrakı illerde Süleyman Rüstem de İran Azerbaycanına,Tebrize silsile eserler hesr etmişdi. Bu eserlerde yanğıdan çox tentene, quzeyin füsunkar tebietine heyranlıq

var. Bextiyar Vahabzadenin ise 1951-ci ilde qeleme aldığı "Cenublu bacıma" şeirini bu günün özünde heyecansız oxumaq mümkün deyil:

İçir suyunu da göz yaşlarından
Toxuduğun güller hey narın-narın.
Neçin göz yaşların dönüb tikana
Delmir ayağını müftexorların?!

Heyat senin üçün ne çetin oldu?
Qelemin yumaqdır, defterin xana.
Nemli zirzemiler mektebin oldu,
Ömrünün sonuna çıxdı karxana!

Bu misralar şairin 20 yanvar faciesinden sonra yasdığı üsyankar eserleri qeder tesirli deyilmi? Tebriz gözelinin toxuduğu xalçaları göz yaşları ile islatmağının sebebi nedir? Çünki ata-babasının yadigarı olan senet incisi gelinlik gehizi olmaq evezine yadların ayaqlarının tapdağına çevrilecekdi:

Ay kamı qelbinde qıvrılan bacım,
Derdli neğmelerin tanışdır mene.
Dumanlı Tebrizin dumanlarından
Şehmi çilenmişdir kirpiklerine?

Xarakterinin çılğınlıq sair püxteleşdikce şeirlerinin ruhuna qarışırdı. O, ana dilinin ve Veten torpaqlarının qorunmasını müsteqilliye beraber tuturdu. Meqsed ve amalı uğrunda yorulmadan daim çarpışmağa hazır idi. Tebietindeki üsyankarlıq bezen zahiri hereketleri ile üze çıxırdı. Hele 1956-cı ilde yazdığı "Ürek" adlı şeirinde veten sevgisinden doğan etiraslarını cilovlaya bilmemesini poetik dille terennüm ederek beyan edirdi:

Mene deyirler ki, danışan zaman
Yaman qışqırırsan, el-qol atırsan.
Asta danışsana, asta dinsene,
Ucadan danışmaq zererdir sene.

Hele onda çekinmeden elan edirdi ki, sonsuz nifretim de, mehebbetim de derindir. Maraqlıdır, represiya dalğası hele keçmemişdi, hebsxanalarda, sürgünlerde günahsız çürüyenlerin

psixasından kölelik bitirilmişdi. Ctalinin ölümünden sonra 1953-cü ilde türmelerin qapısının açılıb mehbeslerin kütlevi şekilde azadlığa buraxılması ölkede xaos yaratsa da, bu, heç de nahaq tutulanların üsyan qaldırması deyildi. Eksine bir çox qatı cinayetkar ünsürlerin de şere düşmüşlerle birce serbestliye çıxarılması idi. Hele haqqı nahaqdan ayırmağın vaxtı çatmamışdı ve hamı ancaq partiyaya böyük reğbetinden danışırdı. B.Vahabzadenin seirlerinden açıq-aydın duyulurdu ki, ana diline, Vetenine, xalqına sonsuz mehebbeti onu sel kimi daşdırır. Ele ise derinden derin olan nifretinin obyekti ne idi? Hansı sebeb onun nifretini coşdurur, üreyini tir-tir titredirdi? Bu sualların cavabını "Gülüstan" poemasında ve "Latın dili" şeirinde verecekdi. Helelik tebietinin deyişmezliyini etirafla kifayetlenirdi:

Men bunu bilirem, ancaq neyleyim,
Ayrıla bilmirem tebietimden.
Esir nifretimden tir-tir üreyim,
Daşıram sel kimi mehebbetimden.

Deşer üreyimi gizli sirr menim,
Üreyim seslener her söhbetimde.
Orta yolum yoxdur, derindir menim
Sonsuz nifretim de, mehebbetim de.

B. Vahabzade'nin yaradıcılığının ilk merhelesini yetkinleşme çağı adlandırmaq olar. Bir-iki kövrek addımdan sonra metinleşen şair özünü söz senetkarı kimi tesdiqleyen, ölkeye ve dünyaya (xüsusile İrana ve Türkiyeye) tanıdan "İztirabın sonu" (1956) "Şebi-hicran" (1958), "Gülüstan" (1959) kimi dahi eserler meydana getirmiş ve edebi-ictimai alemde fırtına, tufan qoparmışdır. Ve şair zamanın qorxu xofuna qalib geldi. DTK-ya çağırılıb dindirildi. Ölümle hedelendi, universitetden qovuldu, evden kenara çıxmasına qadağa qoyuldu. Susdurulması, "başına ağıl qoyulması üçün cemiyyetden kenarlaşdırıldı. Lakin bir xoş tesadüf – dövlet tehlükesizlik orqanında Heyder Eliyevle görüşü taleyini imperiyanın mengenesinden qurtardı.

Nuh peyğenber tufandan çıxan kimi dünyanın xilası yollarını düşünüb. Bextiyar Vahabzade ise fırtına ötüşer-ötüşmez zamanla haqq-hesab çekmeye başladı. Aldığı zerbelerden daha da metinleşmiş, meqsed ve meramını deqiq müeyyenleşdirib bişmiş qelemi, iti zekası ve sevgi dolu qelbi ile yaradıcılığının en mehsuldar çağına qedem

qoymuşdur. Onun poetik irsinin ikinci merhelesi 1960-cı ilden başlayaraq 1989-cu iledek davam edir. Bu 30 illik böyük merhelede yazdığı eserler forma ve mezmunca rengaregdir.

Heyatı heyat kimi yaşamaq ve çıxmağa tepe yox, uca dağ isteyen şair 1960-cı ilde qeleme aldığı "Dağda şelale kimi" şeirinde özünün ve soydaşlarının heyat kredosunu ireli sürür:

Heyat – bir cıdır düzü, bir döyüş meydanıdır.
Her kesi öz cüreti, öz qüdreti tanıdır.
...İsteyirem döyüşem qayaların başında
düşmenle qartal kimi.
Bağçadakı arx kimi ötüb hezin neğmeler,
axmağı istemirem.
Seyyah olub heyata seyirçi bir nezerle
baxmağı istemirem.
Çağlamaq isteyirem dağda şelale kimi,
Sepilmek isteyirem çöllere lale kimi.
Derya olub, nehr olub, çalxanmaq isteyirem,
Göylerde ulduz kimi men yanmaq isteyirem.
Şığımaq isteyirem başsız külekler kimi,
Beslenmek isteyirem bütün üreklerde men
arzu, dilekler kimi.

Beli, sair bu illerde zirvelere qalxıb divlerle kelleleşdi. Amma göresen 1960-cı ilde niye ondan soruşmayıblar: axı, senin düşmenin kimdir? Kimleri qartal kimi döyüşmek üçün qaya başına çağırırsan? Sosializmin iri addımlarla irelilemeye başladığı vaxt derya kimi çalxalanmaq çağırışının setiraltı menası nedir?

Bu suallara onda cavab tapılmamışdı. Yalnız 1990-cı ilin qanlı yanvarından sonra II minilliyin son 10 ilinde yazdığı üsyankar eserlrinde açıq-aşkar bilindi ki, şair hele 1960-cı ilde niye soydaşlarını mübarizeye hazır olmağa sesleyirmiş.

Göründüyü kimi, XX esrin ten yarısını gergin yaradıcılıq axtarışlarında keçirib böyük senet eserleri yaradan B.Vahabzadeni hemin çağın en neheng şairi kimi xarakterize etmeye tam esas var. Lakin şairin ömrü XXI yüzile de adladı.

Azerbaycan zamanın bir çox çetin sınağından çıxdı, qardaş qırğınının qarşısı alınsa da, torpaqlar esir düşdü ve III minilliyin ilk en çılğın carçısı da Bextiyar Vahabzade oldu.

Azerbaycan türklerinin işini düyüne salanlarla tekce

poeziyanın dili ile danışmaq kiyayet etmir. İndi haqqın libasında zoru görüb göstermek hüner sayılmır:

*Yazıram, pozuram, açılmır düyün,*
*Böhtan da atıram bezen dövrana.*
*Özümden soruram: – Sen kimsen bu gün?*
*Yalnız gördüyünü gösteren ayna.*

Dünyanı teeccüblendirmık üçün baş verenlerin sebebini öyrenmek vaxtı çoxdan çatıb:

*Hünerin var ise sen bize göster*
*Yaxşının, ya pisin sebebi neymiş?*
***(“Açılmır düyün” seirinden)***

Şairi en çox narahat eden mesele vetenin dar günlerinde vara-dövlete, servete uyub menliyini satanların sayının artması tehlükesidir. Herislerın kökünün kesilmesi üçün elin qarşısında haqlı teleb qoyur:

*Oğul isteyirem, şerafet bile*
*Xalqın şerefini, leyaqetini.*
*Özüne en böyük seadet bile*
*Bu müdrik milletin seadetini.*
*Oğul isteyirem, «meqsedim» deye*
*Kürsünü özüne amal bilmeye.*
***(“Oğul isteyirem” seirinden)***

Tarixi teftiş eden hoqqabazların sayı günü-günden artır, birinin ağlına yerleşir ki, guya “Babek soyköküyle bizden deyilmiş». Xetai islamı parçalamaqda, Fetelini allahsızlıqda, Vaqifi «baz» olmaqda, Hadini geceli-gündüzlü dem gızib-dolaşmaqda günahkar bilenler de tapılır. Dahilere, ulu babalara leke yaxmaq en böyük nadanlıq deyilmi? En böyük belamız ondadır ki:

Dünya gözgöresi şer atır bize,
Biz de şer atırıq öz dedemize.
Harda ayrılsaq da, burda biz birik,
Ulu dedemize yol gösteririk.

Haqqı tapdayanıq biz haqq adına,
Dil uzun, el qısa, fikir derbeder.
Gören, bu dünyada öz ecdadına
Çirkab atan varmı özümüz qeder?
***(“Qaç, at basdı, millet gelir” şeirinden)***

Şairin zaman-insan bağlılığına hesr etdiyi silsile şeirlerin son akordunda vaxtın azlığından şikayetlenir, dünyanın bütün gerdişlerinde meydan sulasa da, ahıl yaşında zamana teslim olduğunu etiraf edir:

Vaxt tapmadıq Tanrıdan
Doğru yolu sormağa.
Zamanın ellerile
Baş da keçdi qarmağa.

Nehayet, arxanı, önü yadırğayan, gecıni gündüzden ayırmayan insan özünü zamanın töhmıtindın qurtarmaq üçün “ölümmü, qalımmı?” – sualı qarşısında acizliyini nümayiş etdirir:

Bu, arxamı, ya önmü,
Bu, rüzgarmı, bu, günmü?
Özümü öldürümmü
«Özümü qurtarmağa?»
***(«Özümü qurtarmağa» şeirinden)***

İnsanın ömrünü başa vursa da, dünyanı tam derk etmemeyi en böyük belasıdır. Ve qoca zamanın qarşısın da diz qatlayıb yalvarması onun acizliyidirmi?

**Bextiyar Vahabzade Sovet Generalın Üzüne Tüpürdü**

Gerçekliyi mifleşdirib uydyrma qehrmanlar yaratmaq heç kime baş ucalığı getirmir. Çünki çox meselelerde yaddaşımızı don vursa da, 1990-cı ilin qanlı yanvarında yaşadığımız dehşetli hadiseleri hele unutmamışıq. Azerbaycanı müsteqilliye aparan fövqalede sessiyanın çağırılması ideyası Teleradio Verilişleri Komitesinin heyetinde rus generalının üzüne düşen tüpürcekle başlanıb, Mirze Xezerin gün erzinde defelerle seslendirdiyi müracietle heyata kçirilib. Bunları hamı yaxşı bilir. Ve heqiqetin bir üzü var, necedirse, elece de görünür, başqa biçime ehtiyacı yoxdur.

Her xalqın taleyine bir ve yaxud bir neçe qara gün düşür. Ele qara gün ki, böyükden kiçiye hamının ruhundan keçir, içerisine nüfuz edib silkeleye-silkeleye bütöv milleti ayıldır, ayağa qaldırır, ölümle qalım arasında çıxış yolu aranır.

Azerbaycanın qara günleri çoxdur. Lakin 1990-cı ilin 20 yanvar gecesi yaşadığımız tarixin en dehşetli belasıdır, arxadan qefil vurulan sağalmaz yara, milleti millet kimi yetişdirib metinleşdiren, bütövleşdiren derddir. O müsibetlerin unudulduğu yerde ayrılma, parçalanma başlanır. Heyat çoxları üçün yurdun sabahı namine sona çatsa da, ağrılar-acılar bitib-tükenmese de, zamanla olub-keçenlerle az-çox "barışsaq" da, her an xatırlamalıyıq ki, Azerbaycan adlı dövlet mövcudluğunu, müsteqilliyini ancaq şehidlere borcludur. Bu borca şerik çıxmağa ne "Azadlıq" meydanındakı söz pehlevanlarının, ne yaxında, uzaqda yaşayan siyasetçilerin haqqı var. Onda hamı yaxasını geri çekib müsibetin menbeyini tekce yadların, özgeleşenlerin üstüne atırdı. İndi derk edende ki, o qara gün işıqlı çağlara doğru uzanan yolun başlanğıcı, tarixin dönüş yaradan mühüm anlarından biridi, qırğına fitva verenler de, eliyalın camaatı tankların üstüne yollayanlar da olaylardan sağ-salamat çıxmalarına "şükür" etmek evezine, o qara günün özünde qazanc axtarışına çıxırlar. Lakin hamı bir şeyi anlamalıdır ki, başı salamat qalanların en böyük qazancı mehz Allahın ömür payının o gün zorla ellerinden alınmaması, düşmenin qefil güllesine tuş getmemesidi. Başqa qazanclar ancaq ve ancaq şehidlerindi. Ve biz yalnız heyatımız üçün onların ruhu qarşısında baş eymeliyik.

"Avropa" qezetinin 20-26 yanvar 2001-ci il tarixli sayında bu mövzuya böyük yer ayrılması xoş meramdan xeber verir. "Yanvar sessiyası. Onun çağırılması ideyası harda, nece yarandı. Ve sessiyada neler oldu." başlıqlı yazı yaralarımızın üstüne melhem kimi başa düşüle bilerdi. Lakin müsahibe verenin hadiseleri ancaq öz prizmasından keçirib bir meqsede nail olmaq cehdi açıq-aydın göze çarpır ve teessüf doğurur. Onun özünü on bir il evvelki hadiselerin merkezi qehremanlarından biri kimi göstermesi bir yana qalsın, oxuculara açdığı me'lum "sirlerle" ele labirinte, dolaşığa düşür ki, oradan neinki millet fedaisi kimi çıxır, eksine bezi siyasetçilerin hadiselerden sonra az-çox qeyrete gelib doğru addım atmalarını şişirtmekle tamam şübhe toruna bürüyür. Meqalede açıq-aydın hemin dövrün aparıcı adamlarına qerezli münasibet hiss olunur. Müellif sessiya ideyasını ireli atıb gerçekleşdirenlerin ölümle üz-üze gelmelerinin üstünden xett çekmeseydi, heqiqetlere yamaq vurmaqla,

yeni personajlar sisilesi meydana getirib orbitinde dolandırmaqla özünü az qala Azerbaycana müsteqillik getiren sima kimi teqdim etmeseydi, yazıda mentiqsiz görünen meqamlar olmasaydı, söylenenlere inanmaq mümkün idi.

Çoxları yaxşı xatırlayırlar ki, 16 yanvarda, qanlı geceye bir neçe gün qalmış möhterem şeyx hezretleri Allahşükür Paşazade xalq şairi Böxtiyar Vahabzade (her ikisi millet vekili idi) ve başqaları Primakovla görüş zamanı hiss etmişdiler ki, xalqın başının üstünde böyük tehlüke var, merkez qan tökmeden keçinmeyecek, yerli nökerler de buna qol qoyurlar. Merkez «İslam fundamentalizmi» damğası vurmaqla da olsa, Azerbaycan xalqının iradesini qırmağa çalışırdı, «ermeni qırğınları» töredirdi. Aramızda emosiyalara qapılıb bu oyunun esas oyunçularına çevrilenler de tapılırdı. Mehz hemin çağlarda meqalede xatırlanmayan şeyxin Bextiyar Vahabzade ile görüşlerinde veziyyetden çıxış yolları axtarılarken sessiya çağırmaq ideyası meydana gelmişdi. Bu işi gerçekleşdirmek meqsedi ile deputatlara, xalqa müraciet etmek missiyasını son elli ilde xalqımızın tale yuklu problemlerini dissidentcesine qabardıb çiyinlerinde daşıyan B.Vahabzade öz üzerine götürmüşdü.

Qırğın başlananadek adları çekilen ağsaqqalların müxalifet liderleri ile görüşüb heqiqeti anlatmaq, qırğının qarşısını almaq teşebbüsleri boşa çıxır. Sonra onların şeherin müxtelif istiqametlerini gezib işğalçı qoşunun qarşısında barikadalar quran eliyalın ehali ile söhbetleri de heç bir netice vermir. Ve xalq qanlı gecenin dehşetlerini yaşamaq mecburiyyetinde qalır. Ancaq dizleri yere qoyulsa da, eyilimir, sınmır. Şeyx hezretleri facienin eleyhine beyanatla çıxış eden, beynelxalq ictimaiyyetin diqqetini Azerbaycana yönelden ilk resmi şexs idi. Nedense, meqalede bu meselenin de üstünden sükutla keçilir.

Sessiya çağırılmasının labüdlüyünü anlayıb furseti elden vermemeyi qerara alan şair respublikanın esas informasiya vasitesinden istifade etmek isteyir. Azerbaycan Tele Radio Verilişleri Komitesinin heyetinde İ.Şıxlı ve başqa ziyalılarla rastlaşıb studiyaya qalxanda ondan soruşurlar ki, hara gedirsen?

-Deputatlara müraciet etmeye. Fövqalede sessiya çağırmaq lazımdır.

-Hansı televiziya ile çıxış edeceksen? Ötürücü quruğunu partladıblar.

-Kimler?

Heyetde esgerleri ve onların arasında dayanan generalı şaire gösterib deyirler:

-Onlar.

Bextiyar Vahabzade hamının gözünün qabağında yaşına uyğun gelmeyen celdlikle rus generalına yaxınlaşıb:

-Sen menim milletimi qırmış faşistsen, qan içensen - deye onun üzüne tüpürür.

General alnına düşen qefil tüpürcekden qezeblenib elini taprancasına aparır. Lakin televiziyinın rejissoru onu arxadan qucaqlayıb qulağına nese pıçıldayır. Bir andaca esgerler avtomatla şairin sinesini nişana alıb, barmaqları tetikde emr gözleyirler. General bilende ki, qarşısındakı xalq şairi, millet vekili, SSRİ Dövlet mükafatı laureatı, güllelenmesi hamının ayağa qalxmasına sebeb olan Bextiyar Vahabzadedir, onda esgerlere silahı aşağı salmaq işaresi verir.

Bextiyar Vahabzadeni hadise yerinden uzaqlaşdırırlar. O, radionun binasına gedir. Orada onu Mirze Xezerle calaşdırırlar. Şair deputatlara ve Azerbaycan xalqına müracietini lente yazdırır. Mirze Xezer gün erzinde bir neçe defe şairin çıxışını efire buraxır. Bu çağırış ölüme mehkum edilen milletin teçlimçiliyi deyildi (Teessüfler olsun ki, onda metinliyini qoruyan milleti sonralar öz siyasetbazlarımız düşmen qarşısında teslim veziyyetine saldı, torpaqlarımızı ermeni tapdağına çevirdi). 70 il sedaqetle qulluğunda durduğu imperiyaya tüpürmesi, ondan hemişelik üz döndemesi idi. Me’lum meseledir ki, bu çağırışdan sonra meqale müelliflerinin yazdıqları kimi xalq cebhesinin fealları da, başqa deputatlar da sessiyanın baş tutması üçün çalışıblar. Lakin sessiyanı çağırmaq ideyasının E.Qafarova ile qabaqcadan müzakire edilmesi ve razılaşdırılması heqiqete uyğun deyil. Eger eledirse, bes ne sebebe sessiyanı Ali Sovetin sedri E.Qafarova özü aparmadı? Belke Bextiyar Vahabzade zorla onun vezifesini “ele keçirmişdi”? Müsahibe veren bunu bele izah edir: «Deputatların sovet hakimiyyeti eleyhine yönelmiş qerara ses verenlerini te’min elemek üçün işi ele qurmuşduq ki, hamının sevdiyi şair Bextiyar Vahabzade meclise sedr seçilmişdi. Tebii ki, onun teşkilatçılıq bacarığının olmadığını bilirdik. Ancaq başa düşürdük ki, sovet hakimiyyetine qarşı olan bir şexs kimi Bextiyar Vahabzade qorxaq deputatların milli hisslerini oyatmağa qadirdir.» Burada heqiqetden uzaq, qeyri deqiq fikirler çoxdur. Tecrübeli huquqşünasın bele yanlışlığa yol vermesi teeccüb doğurur. Birincisi, şair o vaxtadek sovet hakimiyyetine qarşı olmayıb. Her şeyi öz adı ile demek lazımdır. Sovet hakimiyyetine qarşı çıxana SSRİ Dövlet mükafatı vermezdiler.

Onün mübarizesi rus çarizminin Azerbaycanı istila edib İranla bölüşmesi, dilimizin siyasetle elimizden alınmasına qarşı idi. Mehz keçen esrin 50-ci illerinde «Gülüstan» eseri meydana gelende B.Vahabzade bütün ziyalılar terefinden desteklenseydi, 90-cı illerin felaketleri baş vermezdi. Şairin hemişe bir arzusu olub: sahillere ayrılmayan vahid, bütöv Azerbaycan yaradılsın. Bunun sovet quruluşu, yaxud kapitalist ölkesi olması barede ise düşünmeyib. Sovet hakimiyyetine nifreti mence onda qeti şekilde yanvar gecesinden sonra baş qaldırmışdı. İkincisi, sessiyanın resmi şekilde seçilmiş Ali sovetin sedrinin aparması hem hüquqi, hem de qorxaq deputatların milli hisslerini oyatmaq baxımından daha ehemiyyetli idi. Hemişe sovet hökumetine qulluq gösteren parlament sedrinin sessiyada ittifaqdan çıxmaq meselesini qaldırması bütün dünyada haqq işi uğrunda qerar çıxartdığımızı tesdiqlemezdimi? Elece de bununla 88-90-cı illerde xalqımızın başına açılan oyunlara hüquqi qiymet vermiş olardıq. Bax, hemin cesaretli addımı atmağa E. Qafarovanın hüneri çatmadığı üçün yene de B. Vahabzade özünü qabağa atmışdı. İndi her şey adama adi görünür. Amma onda bunun ne ile neticeleceyi müemmalı idi. B. Vahabzade yaxşı anlayırdı ki, sessiyanın teşkilatçısı ve rehberi kimi onu qandalda Lefertovaya apara bilerler. Axı, Sovet imperiyası Xelil Rzanın timsalında bunu da xalqımızın başında sınaqdan çıxarmışdı. E. Qafarovanın beyanatına gelince, çoxları tesdiqleyerler ki, onu buna mehz A. Paşazade, B. Vahabzade, H. Hesenov, İ. Şıxlı kimi deputatlar mecbur etmişdiler. O, behaneler getirmiş, hetta ana dilinde yaxşı danışa bilmemesine sığınmaq istemişdi. Lakin beyanatı Ali sovetin qeyretli emekdaşlarından biri hazırlayıb qabağına qoyanda Elmira xanımın metni üzünden oxumaqdan başqa elacı qalmamışdı.

Belelikle, Bextiyar Vahabzade poeziyası XX yüzilliyin II yarısında, totalitar socialist rejiminin Böyük veten müharıbesinden sonra ikinci nefesle dirçelib güclendiyi, ac pelenge döndüyü, azadlıq, müsteqillik ideyasına düşmen kesildiyi çağlarda heyecan tebili kimi meydana atılıb öten minillikde Türk dünyasının son en keserli bedii fikirlerinin daşıyıcısına çevrildi. Bu odlu-alovlu poetik söz ve düşünce yaranışları yarım esrlik dövrün hadiselerine güzgü tutmaqla yanaşı insanlığın narahatlığına sebeb olan bütün ağrılı, acılı meseleleri de içerisine aldı. Şair daim rus-sovet imperiyasının buxovlarını boynunda, yumruqlarını başının üstünde hiss etse de, ölümcül zerbelere meruz qalsa da, mengeneye salınıb sıxılsa da, susmağı köleliyin esas elameti bilib qeleminin mürekkebini qurumağa

qoymadı. O, tereddüdsüz anlayırdı ki, dünyanı öz nezaretine götürmeye can atan mühüm qüvvelerden birinin – SSRİ-nin dövlet siyasetinin esasında müxtelif xalqları ruslaşdermaq xetti durur. Bayağı qardaşlıq, dostluq, beraberlik şüarlarının ireli sürülmesi eslinde mekrli meqsedlerin heyata keçirilmesine geniş imkanlar açır. Ümumi yad dille birlikde elin mentalitetine zidd adet-eneneler de insanlara Merkezden sırıdılırdı. Qafqaz, Sibir, Orta Asiya, Krım, Pribaltika xalqlarının eski medeniyyetinin üstüne kölge salınır, milletçilik damğası basılıb yandırılır, ya da arxivlere atılırdı.